DÖVLƏT VERGİ XİDMƏTİ

# Tibb xidmətləri göstərən şəxslərin nəzərinə!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

Tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə ƏDV qaytarılır ("tax free" sistemi tətbiq edilir).

- ƏDV yalnız **nağdsız ödənişlər** üzrə qaytarılır.
- "Tax free" sisteminə qoşulmaq üçün təsdiq edilmiş formada ərizə ilə qeydiyyatda olduğu vergi orqanına müraciət edilir və xidmət müqaviləsi bağlanılır.
- Tibbi xidmətlərin dəyəri (ƏDV ilə birlikdə) **300 manatdan çox** olduqda tibbi xidmətlərin alıcısına xüsusi proqram təminatı vasitəsilə aşağıdakı məlumatları əks etdirən elektron qaimə-faktura tərtib edilir və alıcıya təqdim edilir:

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

- elektron qaimə-fakturanın seriyası, nömrəsi və tarixi;
- satıcının adı, soyadı, təsərrüfat subyektinin ünvanı və VÖEN-i;
- alıcının adı və soyadı;
- alıcının pasportunun seriyası və nömrəsi;
- alıcının vətəndaşı olduğu ölkənin adı (vətəndaşlığı olmayan şəxsin gəldiyi ölkənin adı);
- göstərilmiş tibbi xidmətin adı, qiyməti və həmin qiymətin tərkibindəki ödənilmiş ƏDV-nin məbləği və ödənişin forması (nağd və ya nağdsız);
- həmin elektron qaimə-faktura üzrə göstərilmiş tibbi xidmətə görə ödənilmiş ƏDV-nin qaytarılacağı son tarix;
- alıcının bank kartının (və ya hesabının) rekvizitləri, etibarlılıq (istifadə) müddəti – alıcının istəyi əsasında;
- operatorun və müvəkkil bankın əlaqə məlumatları və rekvizitləri.

**BAKI — 2025**